AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ

# Rusiya Federasiyasında Təhsil




| | |
|---|---|
| Ümumi məlumat və qəbul qaydaları | 1-2 |
| Maliyyələşmə | 3 |
| Tələb olunan sənədlər | 4 |
| Təhsil Nazirliyi ilə əlaqə | 5 |

## Ümumi məlumat

Rusiya Federasiyası tərəfindən 2016/2017-ci tədris ili üzrə Azərbaycn Respublikası vətəndaşlarına Rusiya Hökumətinin büdcəsi hesabına Rusiya ali məktəblərində təhsil almaq üçün təaqüdlər ayrılıb. Təqaüd Proqramında iştirak edən universitetlərin siyahısı ilə keçiddən tanış ola bilərsiniz.

Təqaüd Proqramı çərçivəsində bakalavriat və magistratura səviyyələrində aşağıdakı ixtisaslar üzrə yerlər ayrılmışdır:

- Riyaziyyat və mexanika (01.00.00)*;
- Fizika və astronomiya (03.00.00)*;
- Kimya (04.00.00)*;
- Torpaqşünaslıq elmləri (05.00.00)*;
- Biologiya elmləri (06.00.00)*;
- İnformatika və hesablama texnikası (09.00.00)*;
- Maşınqayırma (15.00.00)*;
- Tətbiqi geologiya, dağşünaslıq, neft-qaz (21.00.00)*;
- Nanotexnologiya və nanomateriallar (28.00.00)*;
- Kliniki tibb (31.00.00)*;
- Kənd təsərrüfatı, meşə və balıq sənayesi (35.00.00)*;
- Baytarlıq (36.00.00)*;
- İqtisadiyyat və idarəçilik (38.00.00)*;
- Servis və turizm (43.00.00)*;
- Təhsil və pedaqoji elmlər (44.00.00)*;
- Tarix və arxeologiya (46.00.00)*;
- Musiqi incəsənəti (53.00.00)**.

***İxtisasların kodu***

*****Rusiya tərəfindən əlavə imtahan tələb olunur, əlavə məlumatı keçiddən əldə edə bilərsiniz***

Müsabiqədə iştirak etmək arzusunda olan Azərbaycan Respublikası vətəndaşlarından http://russia.study/registration linkindən **qeydiyyat-müraciət formasını** doldurmağı və **17 may 2016-cı il tarixi saat 12:00-a** kimi tələb olunan bütün sənədlərin surətini (skan pdf formatında) elektron poçtla **russia.admissions@edu.gov.az** ünvanına göndərmələri xahiş olunur.

Elektron poçtla göndərilən sənədlərin əsilini isə yalnız **13, 16, 17 may tarixlərində saat 11:00-12:00** arası Təhsil Nazirliyinin Vətəndaşların qəbulu mərkəzinə əlaqədar şəxsə (Tavad Mustafayeva) təqdim etməyiniz xahiş olunur.

**Maliyyələşmə**

Tələbələr üçün nəzərdə tutulmuş Rusiya Hökuməti hesabına təhsil aşağıdakı xərcləri əhatə edir:
Rusiya Federasiyası tərəfindən:

- ödənişsiz təhsil;
- universitet yataqxanasında yaşayış;
- aylıq təqaüd.

Təhsil yerinə gediş-gəliş xərcləri  və tibbi sığorta tələbələrin özləri tərəfindən qarşılanır.

**Tələb olunan sənədlər:**

1. Ərizə forması (tam şəkildə doldurulmuş, çap olunmuş və namizəd tərəfindən imzalanmış). Ərizə formasının doldurulması ilə bağlı nümunəni **keçiddən** əldə edə bilərsiniz.

   ***Qeyd: Əsli təqdim ediləcək sənədlərə 3 ədəd rəngli fotoşəkil (3,5x4,5 sm. ölçüdə) əlavə edilməlidir.***

2. Təhsil sənədləri;

   a. bakalavriat təhsil səviyyəsi üçün: ümumi orta təhsil haqqında (attestat) və ya orta ixtisas təhsili haqqında sənədin **rus dilinə notariat qaydada tərcümə və təsdiq olunmuş surəti;**

      ✓ *Hal-hazırda təhsil alanlar məktəb tərəfindən məzun olacağına dair arayış və son qiymət cədvəlinin* ***rus dilinə notariat qaydada tərcümə və təsdiq edilmiş surəti.***

   **b.** magistratura təhsil səviyyəsi üçün: bakalavr diplomu və əlavəsinin (qiymət cədvəli) **rus dilinə notariat qaydada tərcümə və təsdiq olunmuş surəti;**

      ✓ *Hal-hazırda təhsil alanlar universitet tərəfindən məzun olacağına dair arayış və son qiymət cədvəlini* ***rus dilinə notariat qaydada tərcümə və təsdiq edilmiş surəti.***

**Qeyd**: namizəd bakalavr diplomunu xarici təhsil müəssisəsinin məzunu olaraq almışdırsa, həmin ali təhsil sənədin Azərbaycan Respublikası ərazisində tanınması/nostrifikasiyasına dair sənədin surəti;

3. Hərbi xidmətə çağırışdan möhlət hüququnu təsdiq edən sənəd və ya hərbi biletin **notariat qaydada təsdiq olunmuş surəti;**
4. Şəxsiyyət vəsiqəsinin surəti;
5. Ümumvətəndaş pasportunun **rus dilinə notariat qaydada tərcümə və təsdiq olunmuş surəti**;
6. Sağlamlıq haqqında arayış – AZS-086 nömrəli tibbi arayışın **rus dilinə notariat qaydada tərcümə və təsdiq olunmuş surəti ;**
7. QİÇS/HİV xəstəliklərin olmamasına dair tibbi arayışın **rus dilinə notariat qaydada tərcümə və təsdiq olunmuş surəti ;**
8. Fəxri təltiflər, sertifikatlar, diplomlar və digər bu kimi sənədlərin **rus dilinə notariat qaydada tərcümə və təsdiq olunmuş surətləri (mövcud olduğu halda);**

**Təhsil Nazirliyi ilə əlaqə**

Təqaüd Proqramı ilə bağlı suallarınızı russia.admissions@edu.gov.az elektron poçtuna ünvanlaya bilərsiniz.

## “Rossotrudniçestvo”nun Azərbaycandakı Nümayəndəliyi ilə əlaqə

Пономарёва Юлия Валерьевна (+994124964500, riccabiturient@yandex.ru)

.